*ANAR*

# QANLI İLLƏRİN ŞƏHADƏTİ



Azərbaycanın iki böyük ziyalısı Mir Möhsün Nəvvab (1833-1918) və Məmməd Səid Ordubadi (1872-1950) Qafqaza erməni-müsəlman davası haqqında iki çox mühüm kitab yazmışlar. Nəvvabın kitabı elə belə də adlanır: «1905-1906-cu illərdə erməni-müsəlman davası». Ordubadinin kitabının adı isə belədir: «Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda erməni-müsəlman davasının tarixi».

Mir Möhsün Nəvvab Qarabaği ensiklopedik şəxsiyyət, şair, rəsam, «Vizuhil Ərqəm» adlı qiymətli musiqi risaləsinin müəllifi, musiqişunas alimdir.

Məmməd Səid Ordubadi «Qılınc və qələm», «Dumanlı Təbriz» kimi məşhur tarixi romanların müəllifidir.

Bu iki görkəmli şəxsiyyəti, o vaxt 73 yaşında olan Nəvvabı və 39 yaşlı Məmməd Səidi XX əsrin əvvəllərində baş vermiş müdhiş hadisələr haqqında şəhadətnamə yazmağa nə vadar etmişdir? Mənim fikrimcə iki amil: şəxsən şahid olduqdarı və başqalarından eşitdikləri, yazılı şəkildə oxuduqları məlumatları qoruyub saxlamaq və gələcəyə ötürmək ehtiyacı, bir də gələcəkdə bu sayaq hadisələrin təkrar olunmaması üçün vacib xəbərdarlıq.

M.S.Ordubadinin bu kitabı mənə hardasa böyük rus yazıçısı İvan Buninin «Lənətə gəlmiş günlər» sənədli əsərini xatırlatdı. Hə iki müəllif yaşadığı dövrdə şahidi olduqları dəhşətli tarixi hadisələrdən sarsılmış və gördüklərini, eşitdiklərini insanlara ismarıc, xəbərdarlıq kimi qələmə almışlar.

Şuşada, Qarabağda gözü qarşısında baş verən hadisələrin canlı şahidi olan Nəvvabın da Qafqazın başqa yerlərində – Bakıda, Naxçıvanda, İrəvanda, hətta Təbrizdə və Xorasanda cərəyan edən qanlı olaylardan da xəbəri vardı.

Ordubadi isə qəzet vasitəsiylə müraciət edərək bu hadisələr haqqında şahidlərin yazılı xatirələrini ona göndərmələrini xahiş etmişdi. Naxçıvanda, Ordubadda özü gördüyü dəhşətlərlə yanaşı, müxbirlərin ona göndərdikləri faktlardan da gen-bol istifadə edərək Bakıda, Gəncədə, İrəvanda, Eçmiədzində, Cəbrayılda, Qaryagində, Tiflisdə, Qazaxda, Zəngəzurda baş verən toqquşmalar haqqında ürək parçalayan məlumatlar verir. İlk adı «Qanlı sənələr» olan «Qanlı illər» kitabı da Nəvvabın əsəri kimi qanamış bir qəlblə qələmə alınmışdır.

Mənimçün əlamətdar olan fakt bir də odur ki, Ordubadi kitabı üzərində işləyərkən, özü qeyd etdiyi kimi, ulu babam, maarifçi və el ağsaqqalı Ələkbər Rəfibəylinin verdiyi məlumatlardan da geniş istifadə edib. Ordubadi Ələkbər bəyin əsirlərin dəyişdirilməsində iştirakından da yazır.

Hər iki əsəri elə onlar Bakıda çap olunduğu illərdə, yəni 1991 (Ordubadinin kitabını) və 1993-cü illərdə (Nəvvabın kitabını) oxumuşdum. İndi üstündən 28 il keçəndən sonra yenidən bu mətnləri tamam başqa gözlə oxudum və təəssüratımı oxucularla bölüşmək istədim.

Hər iki sənədli əsər 1990-cı illərdən bu günə qədər baş verən hadisələr, özəlliklə Qarabağ münaqişəsi haqqında çox vacib və acı nəticələr çıxarmağa əsas verir. Psixiatriyada belə bir istilah var: «Deja vyu». İnsanda ilk dəfə gördüyü hadisəni, səhnəni, guya ki haçansa daha qabaqlarda da görmüş kimi təəssüratın yaranması.

Nəvvabın və Ordubadinin qələmə aldığı hadisələrlə, davranışlarla, gedişatlarla, münasibətlərlə tanış olduqca sanki az qala yüz il bundan qabaq olmuş hadisələrin XX əsrin sonunda güzgüdəki kimi əks edildiyinə mat qalırsan. Ermənilər həmin ermənilərdir və mübarizə metodları da həminki üsullardır: əsassız iddialar, riyakarlıq, yalan, görünməmiş qəddarlıq, əzazillik, rəhmsizlik. Əlbəttə, mən bu keyfiyyətləri sadalayarkən «erməni» sözünü işlətmək istəməzdim, çünki hər xalqın içində pis, xəyanətkar, amansız və iftiraçı şəxslərlə yanaşı, layiqli insanlar da olmaya bilməz. Odur ki ayrı-ayrı yaramazlara görə bütün xalqı damğalamaq düz deyil. Ermənilərin başqa xalqlara nifrəti, qisasçılığı, qəddarlğı təbliğ etməyən yazıçıları da var, dəqiq elmlər sahəsində ciddi alimləri, istedadlı bəstəkarları, rəssamları, rejissor və aktyorları da… Çirkin siyasi oyunların girovu olmuş sadə ermənilər – əkinçilər, bənnalar, çobanlar, adi peşə sahibləri türklərə, müsəlmanlara düşmən kəsilməyə öz xoşlarıyla can atmırlar. Kimi yalan təbliğatın uydurma miflərinə uyduğundan, kimi hədə-qorxu qarşısında çəkilib bu axına qoşulur. Cocuqluqlarından qulaqlarına pıçıldanılan fikirlər: «tarixi müsibətlər» və onların qisasını almaq hissi çoxlarının dünyagörüşünü zəhərləyir. Siyasətçilər, Raffi, Sero Xanzadyan kimi yazıçılar, Zori Balayan kimi cızmaqaraçılar öz şəxsi məqsədlərini, şöhrət, hakimiyyət, sərvət hərisliyini güdərək beyinləri zəhərləməsəydilər, ermənilər də bütün başqa xalqlar kimi qonşularla dava-dalaşsız, özgə malına (ərazisinə, tarixinə, mədəni abidələrinə, musiqisinə, mətbəxinə) tamah salmadan öz normal həyatlarını yaşayardılar və belə həyat tərzindən daha çox xeyir görərdilər. Heyhat!

Mir Möhsün Nəvvab bu gün belə aktual səslənən «Erməni tayfasına nəsihətlər» yazısında bu xalqa müraciət edir:

«Əvvəla bu tayfadan (erməni) sual edirəm ki, bu qədər mərdimazarlıq və nahaq qanlar tökməklə, mülkləri və malları talan və tarac edilməsində və yanıb xarabazarlığa çevrilməsində səbəb və mətləbiniz nədən ibarətdir? Əgər məqsədiniz padşahlıq və kral olmaqdırsa, sizin bu təbiətinizlə, insafsızlığınızla heyhat ağlasığan şey deyil. Allah-təala zalıma iqtidar və ixtiyar verməz. Bir mötəbər ziyalı mənə danışırdı ki, Almaniyanın dövlət xadimi ona deyib: ermənilər ki bu cür yol tutub, çox tezliklə dünyanın üzündən yox olub gedəcəklər, onlardan bir əsər-əlamət qalmayacaqdır.

Siz xalqınız içərisində əkdiyiniz qəddarlıq toxumunun tezliklə barını görəcəksiniz. Məgər bunların içərisində idraklı, gələcəyi görən və Allahdan qorxanları yoxmudur ki, uzaqgörənlik edib bu fitnə-fəsadlara bais olan və özlərinin xeyrindən ötrü aləmi xəsarətə düçar edənlərə öyüd-nəsihət verib onları düzgün yola qaytaralar? Bircə bunlardan sual edən yoxdur ki, ay ermənilər, vilayətdə alış-verişlə məşğul olduğunuz, zavod və karxanalar

işlətdiyiniz, pul və malınız əlinizdə, çoxunuz milyonçu olduğunuz halda və bir kimsənin sizə gözünüz üstündə qaşınız var demədiyi bir vaxtda Qafqaz vilayətinə saldığınız bu fitnə-fəsad nə üçündür?»

Sanki Nəvvab yüz neçə ildən sonra bu sualı «miatsum» təhrikçilərinə verir və hələ də məntiqli cavab ala bilmir.

Günümüzün acı reallığı budur ki, indi özlərinin «müstəqil» dövlətləri saydıqları əslində Rusiyanın forpostu, vassalı olan ərazidən bütün başqa millətləri, xüsusi qəddarlıqla da müsəlmanları qovaraq monomilli bir ölkə yaratmışlar. Buna baxmayaraq, bütün əsassız iddialarından və qəddar hərəkətlərindən danışarkən bir millət olaraq bütünlüklə erməniləri yox, onları bu uğursuz yola çəkən «azğın millətçiləri», başını itirmiş kütlədən öz məqsədləri üçün istifadə edən siyasətbazları, daşnakları, qnçakları, terrorçuları nəzərdə tuturam. Bir də «qımdat» kəlməsindən istifadə edirəm. Bu sözü Nəvvabın kitabından bildim. Onun kitabına Ön sözdə bu kəlmə belə izah olunur:

«M.M.Nəvvab yazır ki, erməni millətçiləri: əvvəl Osmanlı dövlətində, sonra isə Rusiya şəhərlərində xüsusi qımdatxanalar (müasir saqqallı erməni quldurlarının əcdadlarını), türklərə qarşı birləşdirmiş mərkəzlər yaratmışdılar. Ora ziyalılar, cavanlar, sənətkarlar və erməni icmasının başqa nümayəndələri cəlb olunurmuş. Osmanlı və Azərbaycan türklərinə qarşı təbliğatda, təxribatda, sui-qəsddə, eləcə də silahlı toqquşmalarda istifadə etmək üçün lazımi hərbi sursatın, çar məmur və zabitlərinin rüşvətlə ələ keçirilməsi məqsədiylə varlı erməni təbəqələrindən pul toplamaq qımdatların əsas vəzifələrindən biri idi».

Tanış mənzərədir, deyilmi? Bizim günlərdə «Krunk»u ya «Asala»nı xatırlatmırmı? Çağdaş Qarabağ məsələsiylə analogiya göz qabağındadır.

Yaxud başqa analogiya: Rüşvət verərək məhkum olunmuş azərbaycanlı gənci həbsxanaya erməni əsgərlərinin aparmasına razılıq alırlar. Nəvvab yazır:

«Oğlan məmura yalvarıb xahiş edir ki, erməni əsgərlərlə göndərməsin. Çünki onlar yolda məni öldürəcəklər. Məmur ona qulaq asmayıb zindana aparmağı əmr edir. Erməni əsgərlər oğlanı çəkə-çəkə aparıb yerə yıxdılar və süngü ilə dəlik-deşib edib öldürdülər. Sonra isə məlumat verdilər ki, qaçmaq istəyirdi, biz öldürdük».

Sovet vaxtında Stepanakertdə üç məhkum azərbaycanlı qapalı dustaq maşınında aparılarkən ermənilərin maşına od vurub hər üçünü öldürməsi yada düşür.

Tək Dağlıq Qarabağı deyil, ətraf rayonları də işğal etmiş ermənilər bunu Ermənistanla birbaşa əlaqə yaratmaq və təhlükəsizlik səbəbləriylə izah edirlər. Eynilə 1905-ci ildə də Azərbaycan kəndlərini ələ keçirərək İrəvan, Şuşa, Zəngəzur və Gəncə arasında erməni zolağı yaratmağa çalışırdılar.

Bu analogiyaları sonsuza qədər davam etdirmək olar.

1905-1906-cı illərdə ermənilərin azərbaycanlılara qarşı amansız mübarizəsi hansı tarixi şəraitə təsadüf edir? Rus-yapon müharibəsində Çar imperiyasının məğlubiyyəti nəticəsində ölkədə yaranmış hərc-mərclik, Birinci rus inqilibı və hakimiyyətin zəifləməsi. Elə bu zaman ermənilər baş qaldırıb avtonomiya iddiasıyla və bu avtonomiyanın tərkibinə Türkiyə torpaqlarının da daxil edilməsi tələbiylə çıxış edirlər. Ordubadi yazır:

«Böyük Rusiya inqilabının ən təlatümlü vaxtına təsadüf etdiyindən hökumətdə o qədər güc yox idi ki, ermənilərin islah və cəzasına girişsin».

Eynilə Qorbaçov islahatları nəticəsində dövlət strukturlarının süstlüyündən istifadə edərək, az sonra SSRİ-nin dağılması ərəfəsində ermənilər yenə fürsəti fövtə vermirlər.

1990-cı illərdə Qorbaçov iqtidarının iradəsizliyi, qətiyyətsizliyi şəraitində erməni millətçiləri Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsini qaldırdılar. (Rus-yapon müharibəsini xatırladıqca bu da maraqlı faktdır ki, həmin müharibə vaxtı «sadiq rus təbəələrindən» bir erməni milyoneri yaponlara hərbi gəmi peşkəş edibmiş).

M.S.Ordubadi yazır ki, onun çağırışıyla aldığı 245 məktub və Daşnaksutyun partiyasının fəaliyyətinə aid yüzdən artıq məlumat əsasında çıxardığı nəticələri dörd bəndlə ifadə edir: Dörd bənd, daha doğrusu, dörd səbəbdən birincisi:

«1905-ci il 18 noyabrda Gəncədə baş vermiş hadisələrdən əvvəl noyabrın 8-də daşnakların müsəlmanları müharibəyə çağırmaq üçün Bəhmənli sakinlərini təqsirsiz və günahsız öldürmələridir».

Bu sətirləri oxuyarkən Qarabağ münaqişəsinin başlanğıcında Əsgəranda iki təqsirsiz və günahsız azərbaycanlı gəncin ermənilər tərəfindən öldürülməsi yada düşür.

Ordubadiyə görə ikinci səbəb məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır.

«Şiddətli atəş vaxtı prisitavın yanında olan Cəlil adlı bir ləzgi strajniki «cənab pristav, sizdə heç rəhm-mürüvvət yoxdurmu? Siz baxırsınız islamları güllləbaran edirlər. Olmazmı ki, kəndin kənarlarında olan kazaklara buyurasan, islamları mühafizə etsinlər» – dedikdə «mən müsəlmanları mühafizə elə bilmərəm, görmürsən ermənilər necə canalıcı güllə atırlar» – cavabını vermişdi». («Qanlı illər»)

Bu hadisələrdə kazakların rolu haqqında irəlidə yazacam.

Göründüyü kimi, bizim günlərdə Mərkəzə tabe olan qoşunların qanlı hadisələrə seyrçi qalması Ordubadinin təsvir etdiyi dialoqa tam uyğun gəlir. Bircə onu əlavə etmək olar ki, özümüzdən olan yerli məmurlar, yəni o vaxtkı Azərbaycan partiya rəhbərləri də baş verənlərə eyni etinasızlıqla yanaşırdılar.

Ordubadinin qeyd etdiyi üçüncü səbəbə gəldikdə, müəllif bunu müsəlmanların elmsizliyində və müasir işlərdən bixəbər olmalarında görür. Bizim dövrdə Qarabağ məsələsi ortalığa atılanda azərbaycanlıları elmsiz və müasir işlərdən xəbərsiz adlandırmaq olmazdı. Kifayət dərəcədə elmliydik və dünyanın işlərindən də xəbərdar idik. Amma sadəlövhlüyümüz, «qardaş olub Hayastan, Azərbaycan» mahnısını sidq-ürəklə oxumağımız və oxuduğumuza inanmağımız, xalqımızın cəlladları – şaumyanlarla fəxr etməyimiz və s. və i.a. da həqiqətdir. Sadaladıqca sadalamaq olar – biz qarşıdakı mübarizəyə nəinki hazır deyildik, heç bu mübarizənin çətinliyini də dərk etmirdik. Qarşımızdakı düşmənin məkrindən başqa, gücündən də xəbərsiz idik.

«Əşşi, erməni qorxaq bir millətdir» fikri bizə baha başa gəldi. Yadımdadır, hadisələr təzə başlananda Yazıçılar Birliyinə mötəbər ziyalıları dəvət etmişdim. Toplaşanlar ürək ağrısıyla danışırdılar ki, sovet hökuməti azərbaycanlıların ov tüfənglərini belə müsadirə etdikləri halda, ermənilər silahlanırlar. Eyni zamanda, Sovet ordusunu Azərbaycandan çıxarmaq tələbi irəli sürülürdü. Çox hörmət etdiyim bir ağsaqqal akademikə müraciətlə dedim: Deyirsiz ki, ermənilər silahlanır, bizimkilər silahsızdır, arada sovet ordusu olmasa və bizə hücum etsələr, nəylə müdafiə olunacağıq? Hörmətli akademik: «Erməniləri dəyənəklə Stepanakertə qədər qovacağıq» cavabını verdi.

Nəticə məlum!

İndi də yenə retro analogiyaya üz tutub 1905-ci il hadisələrinə qayıdım. Nəvvabın kitabından bir sitat:

«Bir neçə vaxt bu iki xalq arasında sakitlik yarandığına baxmayaraq, ermənilər öz fitnə-fəsadlarından əl çəkmirdilər. Sadədövh müsəlmanlar isə onların bu hiylələrinə inanıb heç bir tədbir görmürdülər. Amma bu hiyləgər tayfa gizlincə tədarük görürdü, müsəlmanlarda olan silahları ələ keçirmək üçün belə bir hiylə işlətdilər. Əgər tüfəng bazarda 20 manata satılırdısa, onlar 100 manata, tapança 6 manata olduğu halda, 30 manata alırdılar. Sadəlövh müsəlmanlar silahlarının ermənilər tərəfindən belə baha qiymətə alındığını görüb evlərində nə qədər silah və sursat var idisə, tamamən ermənilərə satdılar».

Şərhə ehtiyac varmıdır?

Ordubadiyə görə dördüncü səbəb ermənilərin Türkiyə ərazisində avtonomiya yaratmaq məqsədilə gah Qərbə – Londona, Parisə, Amerikaya, gah da Rusiyaya üz tutmalarıdır.

Bu da çox tanış məsələdir, sanki elə bizim günlərin reallığıdır. Paşinyanın gah Qərb, gah Rusiya qarşısında quyruq bulaması eyni siyasi oyunların yüz on beş il sonra davamı deyilmi?

Nəvvabın və Ordubadinin kitablarında diqqəti çəkən məqamlardan biri də ermənilərin ruslara və onların silahlı «qoçularına» – kazaklara münasibətidir. Bu münasibət saxta erməni-rus «məhəbbətinin» iç üzünü açır.

Erməni millətçilərinin ruslarla və özəlliklə kazaklarla münasibətlərini «qoğal və qırmanc» siyasəti adlandırmaq olar, gah rusları şantaj edib müsəlman (bizim günlərdə türk, pantürkizm, Turan) xofuyla qorxudur, gah guya ki, onlardan kömək görməyib üz döndərir, gah da ayrı dayaqları olmadığı üçün yenidən ruslara yalmanırlar. Bu münasibətlərin açıq təxribat məqamları da var.

İlk əvvəldə ermənilər silahlarını müsəlmanlara qarşı yox, ruslara qarşı işlətmək istədiklərini, beləliklə, avtonomiya tələblərinin həyata keçirilməsinə çalışdıqlarını iddia edirdilər.

Ordubadi, azərbaycanlıların da iştirak etdiyi mitinqdə erməni natiqlərin çıxışlarından örnəklər gətirir:

«Biz erməni milləti neçə vaxtdan bəri milli hüququmuzu və idarə istiqlaliyyətimizi tələb etmək təmənnasındayıq. Nəhayət, bizim düşmənimiz olan Rusiya böyük cüssəli bir fil mənziləsindədir. Bizlər və sizlər, daha doğrusu, rus olmayan başqa xalqlar aciz olub həmişə zalım hökumətin o qəvicümmə filin qorxusundan küncə qısılıb ac-yalavac sızıldamaqda idik. Amma şükür olsun ki, Yaponiya milçəkləri bu zalım filə o qədər zərbə vurdu ki, bizim arzumuz sona yetişdi. Həmin milçək zalım fili o qədər o yan-bu yana qovaladı ki, axırı arxası üstdə dərin bir xəndəyə – kanala yıxıldı. İndi haydı qardaşlar, gəlin əl-ələ verib həmin filin ətini parça-parça edib məhv eləyək».

Başqa bir natiqin çıxışından:

«Ey min illər ilə mehriban qonşuluq edən nəcib müsəlmanlar! Aya, eşidibsinizmi nə qədər hərbi sursatımız hökumət tərəfindən ələ keçirilib. Şuşada bizim nə qədər silahlarımız qəbiristanda və sairə yerlərdə tutulub (müsəlmanlardan: Bəli, bəli). Əgər sizlərdə hümmət və qeyrət olsa, nə qədər silah və pul lazım olsa bizdə hazırdır».

Natiq müsəlmanları ermənilərlə bir yerdə hökumətə qarşı çıxmağa çağırır. Azərbaycanlılar buna razılıq vermir: «Biz yatmışıq ki, bizə azuqə verib padşahımızın üzünə ağ edəsiniz».

Onda başqa erməni natiqləri hədə-qorxuya keçir, müsəlmanlara müraciətlə:

– Bilin və xəbərdar olun, – deyirlər. – Əgər yığıncaqda danışılan sözləri müsəlmanlar qəbul etməsə, Daşnaksutyunun cəza qoşunu tərəfindən artıq təhlükələrə tuş olmalıdırlar. (Müsəlmanlardan: Eyb etməz, eyb etməz)

Başqa natiq – yüz əziyyətlə cəm etdiyimiz sursatı, hərbi ləvazimatı sizlə bərabər məsrəf edərik – sözlərindən sonra hədələyir: «Yoxsa ki əksinə, haman hərbi silahlar sizə qarşı işlənib bəlaların hamısı sizə toxunacaqdır. Deyilən işlərdə sizdən yardım olmasa, bəla ildırımları sizi odlayıb əziz vətəninizi xarabazarlığa döndərəcəkdir. Doğma evləriniz də məzarlığa çevriləcəkdir». Bundan sonra islamlar tərəfindən etiraz edilib məclis sona yetdi.

Çox əlamətdar səhnədir, bir tərəfdən təxribat vasitəsiylə azərbaycanlıları ruslara qarşı qaldırmaq, ikinci tərəfdən rus kazaklarının yardımıyla müsəlmanları qırmaq.

Nəvvabın yazdığına görə, qımdatlar rus xadimlərini öldürüb pulu çamadanla götürüb qaçmışlar. Bir hakimin dediklərindən:

«Görərsən ki dörd saat ərzində bütün müsəlmanları qırıb məhlələrini tarmar etdikdən və Qalanı aldıqdan sonra rusların başına nə gətirəcəyik».

Ara-sıra obyektiv hökumət məmurlarının göstərişiylə kazaklar hərbi səriştəsi olmayan azərbaycanlıların imdatına çatanda ermənilər tərəfindən atəşə tutulurdular.

Rus-müsəlman münasibətlərini istədikləri məcraya yönəltməkçün ermənilər ən müxtəlif vasitələrə əl atırdılar.

«Bir erməni kazaklar tərəfindən öldürülübsə də günahkar müsəlmanlardır» – deyirdilər.

Amma erməni-müsəlman toqquşmalarını uzaqdan-uzağa seyr edib ləzzət alan məmurlar da vardı: Saxarov familiyalı bir pristav qanlı savaşa uca bir təpədən durbinlə baxaraq: «Pəh-pəh, ermənilər nə gözəl yürüşlər edirlər» deyirmiş («Qanlı illər»).

Amma bu döyüşlərə başqa qiymət verən rus məmurları da olub. Nəvvab belə bir fakt gətirir:

«Bu dəstələrin igidləri ermənilərin üzərinə yürüş edərkən cənab qubernator durbinlə vuruşa baxırmış. Müsəlmanlar əllərində tüfəng əyilə-əyilə gedib ermənilərin səngərlərinə daxil olaraq onları gülləbaran etdiyini görən qubernator əl-ələ vurub təəccüblə demişdi: «Bu hünər heç yaponda da olmayıb. Heç bir hərbi təlim görməyən bir millətin belə hünər göstərərək səngəri tutması çox qəribədir».

Ümumiyyətlə, bu qanlı vuruşlarda hərbi təcrübəsi, çox vaxt yetərincə silahi olmayan azərbaycanlıların bir çox hallarda erməniləri məğlubiyyətə uğradıb qaçmağa məcbur etməsi faktları da az deyil. Ordubadi yazır ki, ermənilər qaçmağa üz tutanda azərbaycanlılar onları təqib etmirdi. Ordubadi onu da qeyd edir ki, qorxub qaçan ermənilər ölülərini belə aparmağa cəhd etmirlər, «meyitlərini payız yarpaqları kimi müsəlmanların ayaqları altına səpirdilər. »

Azərbaycanlılara qarşı xüsusi qəddarlıq göstərən kazaklardan birinin erməni olması aşkar edilir. Bu da 1990-cı ilin Qara Yanvarında dinc əhalini qıran rezervistlər arasında ermənilərin olmasını yada salır.

Kazaklarla bağlı yarıfaciəvi, yarıməzəli bir hadisə də var.

Erməni evini yandırmaq istəməyən müsəlman cavanları yalnız bu evin zirzəmisində yerləşən şərab çəlləklərinə atəş açırlar. Nəvvabın yazdığı kimi, güllələrlə dəlik-deşiş olmuş çəlləklərdən şərab sel kimi axmağa başlayır. Rus kazakları bunu eşidən kimi şərabları vedrələrə doldurub aparmağa başlayırlar. Bir müddət üfunət iyindən oranın qabağından keçmək mümkün olmur.

Erməni terrorçularının müsəlmanlara qarşı az-çox obyektiv mövqedə duran rus məmurlarının – qubernatorun, zabitlərin qətlə yetirməsinin bizim günlərdə analoqu – Polyaniçko və general Roxlinə qarşı sui-qəsdlərdir. Bizim günlərdə Kazimirov, Zatulin və bu kimi ermənidən artıq ermənipərəstlərin

«haylara məhəbbətinin» səbəblərini yenə də Nəvvabın və Ordubadinin kitablarında tapırıq.

Aydın olur ki, kazakları və ümumiyyətlə, rus məmurlarını içkiylə ələ almaq da ermənilərin ənənəvi mübarizə üsullarından biridir.

Nəvvab yazır:

«Şuşaya göndərilmiş Qalaşakov (Kalaşakov) adlı bir rus generalı var imiş. Ermənilərin məşvərətindən sonra Duma qlavası Kiki Kələntərov onu yaxşı öyrənmiş, onunla söhbət edib, ermənilərə qarşı rəğbətini bildikdən sonra generalın Şuşa şəhərində üsuli-idarəsinin rəhbəri təyin olunması üçün onun razılığını almışdı. Hər gecə Kiki Kələntərovun başçılığı ilə erməni tayfasının hesabına general Qalaşakovun məclisi və generalın qulluğuna təyin etdiyi 2-3 nəfər erməni övrətləri gecə-gündüz ona xidmət edirdilər. Kələntərov gecə məclisləri əsnasında Qalaşakova və onun kazaklarına neçə min manat rüşvət verdirərək, Qalaşakova öz məqsədini izhar etdi».

Məqsəd isə kazaklardan azərbaycanlıları qırmaq üçün istifadə etmək idi. Xocalı qətliamının əsas törədicisi 366-cı motoatıcı alay yada düşmürmü? Nəvvab yazır:

«Rusların istədiyi bu idi ki, iki millət bir-biri ilə dava edib – bir-birinə məşğul olsunlar, taki dövlət farağat olsun, çünki millətin zəif və kasıb olması dövlətin silahıdır».

Nəvvabın yazdığına görə, Qalaşakov söz verir ki, «rus əsgərləri müsəlmanların evlərini, dükan və bazarlarını tamamilə yandırıb özlərini də qıracaq, qalanını isə qovacaqlar. Bundan sonra vuruşun davam etdirilməsini və yaxud müsəlmanlarla barışmamalarını ermənilərin öz öhdəsinə buraxmışıq».

Kiki Kələntərov bu planı həyata keçirməkçün Qalaşakova 10000 manat rüşvət verib.

«General Kələntərovla əvvəlcədən tökdükləri tədbirə əsasən rus əsgərləri erməni keşikçilərindən birini öldürərək meyitini müsəlmanlar səmtə atırlar və sonra səs qaldırdılar ki, müsəlmanlar erməni keşikçisini öldürərək başını kəsmişlər».

İstər Nəvvab, istərsə də Ordubadi qımdatların Bakıda, Şuşada, Gəncədə, Naxçıvanda və başqa şəhərlərdə ermənilərin öz əlləriylə öz soydaşlarını öldürməsi və sonra bunu azərbaycanlıların üstünə atması faktlarını gətirərkən istər-istəməz bizim günlərin Sumqayıt hadisələri yada düşür. Cinayətkar Edik Qriqoryanın başçılıq etdiyi narkomanlar dəstəsi Sumqayıtdakı erməni evlərinə basqın edib günahsız insanları vəhşicəsinə öldürməsi gələcək təbliğat savaşı üçün hazırlıq idi. «Bu vəhşi müsəlmanlarla biz necə bir yerdə yaşaya bilərik» fikrini SSRİ və dünya ictimaiyyətinin beyninə yeritmək üçün neçə-neçə millətdaşlarını qurban verməyə hazır idilər. Sumqayıtda günahsız insanlara qarşı törədilən əlahiddə qəddarlıq qımdatların müsəlmanlara qarşı əzazilliyinin davamıdır. Qımdatların terrorçu təşkilatlara pul ödəməyənlərin hətta ölümlə cəzalandırılması Sumqayıtda da belə ödənişlərdən imtina edən ermənilərin başına gəlib.

90-cı illərdə Qarabağ hadisələri başlananda İrəvan meydanlarında «Biz əsgərləri (yəni sovet ordusunu) bizə atəş açmağa məcbur edəcəyik. Rusları, türkləri erməni qanına bələyəcəyik» kimi şüarlar mazoxistcəsinə səslənirdi. Mazoxizmin, yəni çəkdiyin iztirablardan ləzzət almağın bir üzü də sadizmdir. Yəni kiməsə işgəncə verməkdən zövq almaq. Təsadüfi deyil ki, sado-mazoxist anlayışı çox vaxt qoşa çəkilir. Belə mazoxist şüarlarla haçansa qımdatların, indi də asalaçıların törətdikləri qəddarlıq – məhz sado-mazoxizmin əlamətidir. Zülmdən zövq almaqla bərabər, özünə verilən işgəncədən

də ləzzət çəkmək bəzi seksual cəhətdən sapıq insanlara xasdır. O da qəribə insan xislətidir ki, bəzən çox sentimental, hər şeydən təsirlənib gözləri yaşaran, ağlağan və daima qəmgin adam eyni zamanda son dərəcə qəddar, əzazil, rəhmsiz və qansız ola bilir. Bu iki əks cəhət vahid varlıqda birləşib qovuşur. Bu bir çox ermənilərə xas olan cəhətdir. Daima məzlumluqlarından şikayət, tarixi talelərindən giley, ağlamsınmaq və eyni dərəcə də görünməmiş qəddarlıq, inanılmaz amansızlıq.

Yaxşı, tutalım, nə səbəbdənsə başqa millətə düşmən kəsilirsən, müharibə aparırsan onunla, müharibədə məqsəd rəqibi məhv etməkdir. Bəs onda dinc əhaliyə, qadınlara, uşaqlara qarşı bu ağlasığmaz əzazillik nədəndir? Bu, sanki insanın insana yox, bir yırtıcı heyvanın, canavarın yaxud akulanın insan qanına susamasına bənzəyir. Əsrlərlə səninlə dinc yanaşı, bəzən hətta mehriban yaşayan xalqa qarşı bu qədər əndazəsiz nifrətin, hikkənin, qəddarlığın səbəbi nədir? Səbəbi sosial yox, bioloji sahədə axtarmalıyıq yəqin, yoxsa bunun ayrı izahı mümkün deyil.

Nəvvabın və Ordubadinin gətirdikləri dəhşətli qəddarıq faktları oxucunun qanını dondurur.

«Ermənilər oğlanı öldürdükdən sonra oradakı aftafalardan bir neçəsini götürüb oğlana vuraraq başını əzdilər və bütün bədən üzvlərini kəsdilər». (Nəvvabın kitabından).

Nəvvabdan başqa bir sitat: «O biçarəni öldürəndən sonra qarnını yırtıb başını daşla əzib, qulağını kəsib aparmışdılar».

Ordubadidən sitat: «Sırzavənd sakinləri – Abbasqulu və İman Həsənxan oğlu meşəyə getdikləri zaman ermənilər tərəfindən qətl olunub, sonra yandırılmışlar. Cinayət yerində yalnız kəsilmiş başları qoca atalarına müsibət əmanəti kimi qoyulmuşdur».

Hamazasp adlı erməni komandirinin atlıları bütün kəndi darmadağın edirlər. Qubada da belə amansız cinayətlər törətmiş həmin bu Hamazaspa Daşnaksutyun Komitəsi general rütbəsi verib. Hamazaspın dinc əhaliyə etdiyi zülmlərdən yazan Ordubadi belə bir faktı da gətirir ki, bu general-quldurun döyüşçüləri körpə uşaqları beşikdəcə yandırır, yaxud başlarını divara vurub əzir, ya da analarının əllərindən alıb süngüyə keçirirdilər. Hamilə qadınların qarınlarını süngüylə yarır, bətnlərindən doğulmamış körpələri çıxarıb oda atırlar. Diri insan kəlləsinə mismar ya nal çaxmaq, şişlə göz çıxartmaq – vəhşilik fantaziyaları hüdudsuz imiş. On beş südəmər uşağın kəsilmiş başlarını meşədə bir palazın altında tapmışlar.

Tifil körpələrə qarşı bu canavar qəddarlığını (heç canavar da bu qədər qəddar olmaz) Nəvvab da qələmə alıb. Evin kişisini güllə ilə öldürdükdən sonra «qucağında dörd aylıq uşaq olan qadına yaxınlaşdılar, övrət dedi ki, Allah xatirinə məni öldürün, ancaq uşağa əl vurmayın. Dedilər ki qorxma, uşağı öldürməyəcəyik. Onlar uşağı qadından alıb bələyini açdılar, ermənilərin hərəsi bir tərəfdən çəkdilər. Uşaq ikipara oldu, iki yerə bölünmüş uşağın parçalarını anasının üstünə atdılar. Bu vəhşiliyə dözməyib qadın huşunu itirdi. Bu qadını da bir neçə güllə ilə qətlə yetirəndən sonra dəyirmanda olan taxılı və unu, eləcə də malı qarət edib apardılar».

Bu tükürpərdən faktlardan sonra Xocalı qətliamını, Ermənistanın sabiq prezidenti, müharibə canisi Serj Sarqsyanın «Azərbaycanlılar elə bilirdilər ki, biz zarafat edirik, dinc əhaliyə toxunmayacağıq. Xocalı onlara dərs olsun» sözlərinin də daşnak tarixinə arxalandığını görürsən. Ümumiyyətlə, bəzi qəddar ermənilərin uşaqlara münasibəti xüsusi tədqiqat mövzusudur. İtalyan yazıçısı Umberto Ekonun məşhur «Qızılgülün adı» romanında Orta əsrlərdə erməni keşişlərinin körpələri hansısa dini mərasim naminə necə işgəncələrlə

öldürdükləri barədə tarixi şəhadətlər gətirilir. Ekonun yazdığına görə, çox əsrlər bundan qadaq bir erməni dini təriqətinə mənsub olanlar belə bir ayin icra edirmişlər: «Gecələr zirzəmiyə düşür, təzə doğulmuş uşağı götürüb bir-birinə atırmışlar. Ta o vaxta qədər ki körpə zədələrdən ya ayrı səbəbdən canını tapşırırmış. Uşağın son nəfəsi kimin qucağında çıxırdısa, onu sektanın rəhbəri seçirmişlər. Körpənin bədənini parçalayıb xəmirə qatır və bundan «müqəddəs xörək» hazırlayarmışlar». Qədim din tarixlərinin bu faktlarıyla «iftixar» edə bilərlər.

Bir də təkrar edirəm, bütün bu dəhşətli şəhadətlərə baxmayaraq, mən belə ağlasığmaz cinayətləri bütün erməni xalqının adına yazmıram. Amma Şərqdə ilk xristian xalqı olmalarıyla fəxr edən, xristian əxlaq dəyərlərinə sadiqliyiylə öyünən, özlərini dünyanın ən qədim mədəni milləti sayan ermənilər gərək tarixlərinin bu mənfur faktlarını da unutmasınlar, tövbə edib bir daha belə cinayətləri etməyəcəklərinə qərar versinlər. Türkləri, müsəlmanları qaniçən, başkəsən, qəddar adlandıranlar güzgü qarşısında dayanıb özlərinə tamaşa etsinlər, boylanıb öz keçmişlərinə və hazırkı əməllərinə baxsınlar.

Günahsız insanları sadəcə, öldürməklə ürəkləri soyumur, mütləq başlarını kəsib qətl edirlərmiş. Bu da bizim günlərdə bütün dünyanı sarsıdan İraq Şam İslam Dövləti adıyla çıxış edənlərin kinokameralar qarşısında baş kəsmələrinin tarixdə qalmış ilk örnəkləridir. Fərq ondadır ki, o vaxt kinokameralar və televiziya yox idi.

Bəzi kəndlərə elə od vururmuşlar ki, Nəvvabın obrazlı şəkildə yazdığı kimi, «yanan evlərin işığında neçə mil məsafədə kağız yazıb-oxumaq mümkün idi».

Ordubadi yerlə-yeksan olunmuş, bütün əhalisi qırılmış belə kəndlərdən biri haqqında bəhs edərək yazır: «Ümudlu kəndi camaatına ermənilərdən olunan əziyyətlər indiyə qədər bir xalqa, bir millətə edilməmişdir. Heç bir tarixdə, insanın insana bir belə zülm-sitəmin rəva göründüyü yazılmamışdır zənnindəyik».

XX əsrdə bütün əhalisi məhv edilmiş, evləri dağıdılıb yandırılmış, yer üzündən silinmiş kəndlər – Xatın, Liditse, Sonqmi, Xocalı aqibətinin ilkini daşnak vəşhətinə məruz qalmış Umudlu kəndi yaşamışdır.

Xüsusi vurğulamaq istəyirəm ki, bu qəddarlıqlar 1905-ci ildə, yəni Osmanlıda 1915-ci il hadisələrindən, ermənilərin soyqırım kimi qələmə vermək istədikləri olaylardan on il əvvəl baş verib. Yəni ermənilərin «biz soyqırımının qisasını alırıq» arqumenti də kara gəlmir.

Ordubadi də, Nəvvab da müsəlmanların yağıya qarşı daha rəhmli, daha insaflı olduğunu dönə-dönə faktlarla isbat edirlər.

Ordubadi qeyd edir ki, azərbaycanlı komandan əsgərlərinə döyüş əmri verərkən: – Körpə uşaqlara, erməni hərəmlərinə təhqirlə əl uzadıb, əzab-əziyyəti rəva görməyəsiniz, – deyir.

Əllərinə keçən hər məqamda Quranı yandıran, məscidlərə od vuran qımdatlardan fərqli olaraq, müsəlmanlar tam əksinə hərəkət ediblər.

«Kilsələr məbədgah olduğuna görə onlara toxunmayıb od vurmadılar, bir neçə tərəkəmə darvazaya od qoyub kilsəni yandırmaq istəyərkən şuşalılar odu söndürüb demişlər: Kilsə və məscidlərə hörmət eləmək lazımdır» (Nəvvab).

«Kəndə basqın zamanı müsəlman atlıları övrətlərə və uşaqlara toxunmazdılar» (Nəvvab).

Ordubadi də, Nəvvab da konkret faktlarla xatırladırlar ki, qarışıqlıq zamanı azərbaycanlılar neçə erməni ailəsinə öz evində sığınacaq verib qorumuşlar. Bunun müqabilində sənələrlə mehribanlıqla yanaşı yaşamış ermənilər

qonşularına xain çıxmış, hətta onlara sığınacaq verib qorumuş müsəlmanları belə ələ vermiş, bəzilərini şəxsən özləri öldürmüşlər.

Bununla belə, hər iki müəllif bizim xalqa xas olan bəzi naqis cəhətlərin də üstündən keçmirlər. Xalqımızın ürəkaçıqlığından doğan sadəlövhlüyünü, Nəvvabın yazdığı kimi, erməni təhlükəsinə barmaqarası baxması, son dərəcə biveclik göstərərək öz silahlarını ucuz qiymətə ermənilərə satdıqlarını əvvəllərdə qeyd etmişdim. Ordubadi də bir sıra başqa milli nöqsanlarımızı vurğulayır. Bu – bir çox xan-bəylərimizdə, mülkədarlarımızda, varlılarımızda, ziyalılarımızda milli hissin zəifliyidir. Bəzi erməni pulluları və rus generallarıyla yeyib-içən, kef məclislərində iştirak edən azərbaycanlı bəylərin xalqın taleyinə biganəliyindən ürək ağrısıyla yazan Ordubadi xatırladır ki, Qalaşakov qədər müsəlman düşməni olan başqa bir rus məmuru daşnaklarla dostluq edən Pivovarov bütün iğtişaşlarda ermənilərin tərəfini tuturmuş. Şuşa kəndliləri və tacirləri general-qubernatora müraciətlə Pivovarovun işdən azad edilməsini tələb edəndə, onunla əhli-kef olan bəzi bəylərimiz bu müsəlman düşmənini müdafiə etmiş və o, yerində qalmışdı.

Doqquz gün ərzində sayca qat-qat üstün qımdatlardan qorunan Qatar kəndinin camaatı bir parça kağız yazıb qonşu kəndlərin nücaba və bəylərindən yardım istədikdə «Bizdən sizə kömək olmaz, başınıza çarə qılınız» cavabını alırlar («Qanlı günlər»).

Başqa bir milli bəlanı Ordubadi xalqın siyasi cəhətdən parçalanmasında, müxtəlif partiyaların bir-biriylə didişməsində, hər siyasətçinin rəhbərlik iddiasında görür. Bu da 1991-93-cu illərdə Bakıda baş verən hakimiyyət davalarını yada salmırmı?

Ermənilər bu məqamlardan da öz məqsədləri üçün istifadə edirlər. Vaxtilə Moskvaya ermənilərin siyasi danoslarına məruz qalmış böyük şəxsiyyətlərimiz Şah İsmayıl Xətai, Koroğlu, Qaçaq Nəbi, Mirzə Cəlil Məmmədquluzadə bu gün «sapı özümüzdən olan baltalar» tərəfindən aşağılanır. Azərbaycan yazıçısı ermənilərin azərbaycanlılara etdikləri zülm haqqında biri kəlmə kəsmədən, azərbaycanlıların erməniləri incitməsi haqqında roman yazıb tələsik məhz rus dilində Moskvada nəşr etdirir ki, istədiyi ünvana tez çatsın.

1905-ci ildə daşnaklar Azərbaycanda sünni-şiə münasibətlərindən də təxribat kimi istifadə etməyə çalışıblar. Ordubadi əsir qadınların ayaqlarını kəsən bir qımdatın sözlərini gətirir:

“Bizim Qafqazda müsəlmanlarla müharibəmiz vardır. Fəqət, bu müharibə sünni camaatıyla olmayıb, şiələr ilədir”.

Və nəhayət, Nəvvabın və Ordubadinin kitablarının bizimçün bu gün dərs olacaq bir son məqamına da diqqəti çəkmək istəyirəm:

Ordubadi daşnak Sarkisyana anası tərəfindən göndərilmiş məktubu gətirir. Məktubdan bir parça:

«Sevgili oğlum! Məhəmmədəli Mirzənin şah tərəfindən aldığı hökm üzrə ermənilərə etdiyi məhəbbəti gözəlcə nağıl eləyir. Nersesin deməyinə görə, İran müsəlmanları Qafqaz işlərində bitərəfdir. Belə məlum olur ki, bu tərəfdə olan xanların da qədim xəyalı qalmamışdır. Varvara.» Vəssalam. Şərhə ehtiyac yoxdur.

Mir Möhsün Nəvvabın da, Məmməd Səid Ordubadinin də kitabları nifrət yox, ibrət dərslikləridir.

Mən də bu yazımda eyni məqsədi güdürəm:

Bilmək, unutmamaq və nəticə çıxarmaq.

***Oktyabr 2019***

# ŞEYX ŞAMİLİN «QURBANI» HEYDƏR HÜSEYNOV

Görkəmli Azərbaycan alimi, marksist filosof Heydər Hüseynov iri həcmli kitabında Şeyx Şamil haqqında xoş sözlər yazdığı üçün amansız təqib edilərək intihar həddinə çatdırıldı. Heydər Hüseynovu, əlbəttə, ancaq şərti olaraq «Şeyx Şamilin qurbanı» adlandırmaq olar. Cəmi 42 il yaşamış alimin ömrünün son dövründə pisikdirilməsinin, alçaldılmasının, hər növ təzyiqlərə, təhqirlərə məruz qalmasının başqa səbəbləri də vardı ki, az sonra onlara da toxunacam.

1908-ci il aprelin 3-də İrəvanda dünyaya gələn Heydər on yaşında ikən azərbaycanlılara qarşı talanlardan qurtulmaq üçün anası və üç qardaşıyla doğma şəhərindən qaçır. Orta və ali təhsilini Bakıda alan Heydər Hüseynov ölkənin ən savadlı, geniş dünyagörüşünə malik olan alimi kimi yetişir. Professor, elmlər doktoru H.Hüseynov SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının (AZFAN-ın) rəhbəri, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yarananda isə onun ilk həqiqi üzvlərindən biri və vitse- prezidenti olur.

Azərbaycanın partiya rəhbəri Mir Cəfər Bağırov gənc alimin bir çıxışından sonra onun parlaq istedadını yüksək dəyərləndirərək: – Bu ki MK-nın ideologiya üzrə hazır katibidir, – deyir. Bu sözlər sonralar Heydər Hüseynova baha başa gəlir. Onu rəqib kimi görən partiya funksionerləri Mir Cəfər Bağırovun fikrini dəyişdirə bildilər. An içində Heydər rəhbərin ərköyünündən qatı düşməninə, hökmən məhv edilməyə məhkum olan insana çevrilir.

Bizim günlərdə, sovet dövrünün bütün ictimai-siyasi anlayışları kökündən dəyişdiyi bir zamanda bəzən Heydər Hüseynovu az qala antikommunist kimi qələmə verməyə çalışırlar. Bu, kökündən yanlışdır. Heydər Hüseynov əqidəli kommunist və həqiqi marksist alim idi. İndiki zamanda bunu ona irad tutmaq olmaz. Heydər Hüseynov marksizm təliminin təməl nəzəri əsaslarına sadiq bir filosof idi, buna görə də əsl patriot kimi marksist-leninçi siyasi ədəbiyyatı tərcümə və təbliğ edərək öz xalqına çatdırmaq istəyirdi. Stalin dövründə (elə qismən Lenin dövründə də) Marks təlimi nə qədər təhrif olunsa da, çox vaxt əsl məqsədlərinə tamam tərs şəkildə yozulsa da, bu təlim öz-özlüyündə dünya icitimai-siyasi və fəlsəfi fikir tarixinin mühüm mərhələlərindən biridir. Təsadüfi deyil ki, Qərb dünyasında böyük nüfuz sahibi olan fransız yazıçısı və filosofu Jan Pol Sartr deyirdi:

«Mən belə düşünürəm ki, hər əsrdə ədəbiyyatın bir əsas mövzusu olur. XVI əsrdə «Don Kixot», XIX əsrdə «Hərb və sülh» belə romanlar olduğu kimi, bizim əsrdə də belə bir romanın mövzusu sosializmin həyata keçmə təcrübəsi ola bilər. 1917-ci ildən bizim günlərə qədər – Stalin dövrünün təhrifləri də daxil olmaqla – sosializm mövzusu».

Doğrudur, 1963-cü ildə Praqada söylədiyi bu nitqində Sartr sosializmin nəzəri prinsiplərinin həyata keçirilməsi təcrübəsində təhriflərindən (ad çəkməsə də Sovet İttifaqında), bu prinsiplərin aşınmasından da söz açır:

«Bir anlığa təsəvvür edək ki, dünyanı xilas etmək üçün mütəmadi olaraq yalana və mistifikasiyaya əl atmaq lazım gələydi. Bu üsulla yaranmış cəmiyyət bizim təsəvvür etdiyimiz cəmiyyətdən tamam başqa bir cəmiyyət olardı. Bu,

həyat təcrübəsi yalana və mistifikasiyaya alışmış insanların cəmiyyəti olardı. Tamamilə yabançılaşmış insanların yığnağı. İnqilabi intellektualın borcu məhz ondadır ki, məqsədə çatmaq üçün işlənən vasitələrin məqsədin özünə zidd olduğunu görəndə bu barədə desinlər».

Heydər Hüseynov marksist əsərləri mənimsəyəndə, tərcümə və təbliğ edəndə, yəqin ki, başqa intellektual müasirləri kimi o da heç fərqinə varmırdı ki, marksizmin həqiqi mahiyyəti Stalin diktaturası şəraitində necə də təhrif olunub.

Bu deformasiyanı Heydər Hüseynovdan çox illər əvvəl dərk edən Nəriman Nərimanov da marksist ədəbiyyatın türkcə də olmasının gərəkliyinə şübhə etmirdi. Əgər Marksın, Leninin əsərləri bütün mədəni xalqların dillərinə çevrilibsə, onlar mütləq Azərbaycan türkcəsinə də tərcümə olunmalıdır.

Repressiya qurbanı Ruhulla Axundovun müsibətli qətlindən sonra bu iş Heydər Hüseynovun öhdəsinə düşdü. Marksın, Leninin, Stalinin əsərləri Heydər Hüseynovun tərcüməsində ya da onun redaktəsi ilə çapdan çıxdıqda alim böyük fərəh hissi yaşayırmış. Bu barədə mənə dostum, akademik Məmməd Arifin oğlu, mərhum Araz Dadaşzadə danışırdı. Belə kitablar çıxan kimi Heydər Hüseynov yaxın dostu Məmməd Arifə bu barədə xəbər verir və sevincini onunla bölüşürmüş.

Alimin ən mühüm və monumental əsəri «XIX əsr Azərbaycanın ictimai və fəlsəfi fikir tarixindən» kitabı da (M.C.Bağırov bunu qəzəblə inkar etsə belə) marksist metodologiyası əsasında yazılıb.

Əlbəttə, alovlu vətənpərvər olan Heydər Hüseynov marksist idelogiyası qəlibləri içində də Azərbaycan maarifçilərinin – Mirzə Kazım bəyin, A.Bakıxanovun, M.Ş.Vazehin, M.F.Axundovun, H.Zərdabinin böyük xidmətlərini yüksək elmi dəlillərlə qiymətləndirə bilib.

H.Hüseynovun gözdən düşməsinin səbəbi M.C.Bağırovun iddia etdiyi kimi əsərinin «antimarksist, antikommunist ruhu» deyildi, respublika «sahibinin» şəxsi qisasçılığı idi. Ən son vaxtlara qədər rəğbət bəslədiyi H.Hüseynovdan Bağırov nəyin qisasını alırdı?

Belə görünür ki, Heydər Hüseynov Bağırovla SSRİ Yazıçılar İttifaqının sədri Aleksandr Fadeyev arasında gərgin münasibətin günahsız «müqəssiri» olub. Bağırovla Fadeyevin pis münasibətlərinin əsl səbəblərini bilmirəm. Böyüklərimin söhbətlərindən o yadımda qalıb ki, 1948-ci ildə, Nizaminin 800 illik yubileyi münasibətiylə Fadeyev Bakıya gələndə Bağırov çox maraqlanırmış ki, içkiyə ifrat aludəçliyi yaxşı məlum olan yazıçı nəyə görə burda dilinə alkoqol vurmur. Görünür, elə o vaxt Azərbaycan rəhbərinin bununla maraqlanması Fadeyevi duyuq salıbmış və o, təxribatdan qorxaraq içmirmiş. Mirzə İbrahimov mənim valideylərimə danışırmış ki, bir ziyafətdə Bağırov özünü Fadeyevin qarşısında çox miskin vəziyyətə salıb. Mirzə müəllimin danışdığına görə, Bağırov Fadeyevə: – Siz rus olduğunuz üçün mən sizin ayağınızdan öpməyə hazıram, – deyirmiş.

Banket köhnə İnturistdə imiş. Fadeyev arada eyvana çıxanda Səməd Vurğunla Mirzə İbrahimov da onunla çıxıblar. Fadeyev köynəyinin yaxasını açaraq: «Kak vı terpite etoqo satrapa?» (Bu satrapa necə dözürsuz?) deyib. Bu barədə yazmaq istəmirdim, amma yəqin ki, indi mən bu söhbət haqqında məlumatı olan yeganə insanam. Ona görə də o dövrün əxlaq davranışlarını bilmək üçün bu cür faktların unutdurulması düz deyil. Bağırovun Azərbaycan xalqı qarşısında həm bağışlanmaz cinayətləri, həm də taleyüklü xidmətləri haqqında «Yaşamaq haqqı» traktatında ətraflı yazmışam. Onun üzdə də olsa ruslara bu «məhəbbətini» müxtəlif şəkillərdə izhar etməsinin səbəbləri də o traktatda açılır. Bu epizodda isə, əlbəttə, o vaxt Mirzə İbrahimovun və Səməd

Vurğunun verə bilməyəcəkləri cavabı bu gün biz verə bilərik. – Bəs, siz Fadeyev Moskvadakı daha böyük diktatorun şıltaqlıqlarına necə dözürsüz?

Bağırov Fadeyevə bu biabırçı sözləri deyibsə (Mirzə müəllimin şəhadətinə şübhəm yoxdur), yeri gələndə yazıçıdan hayıfını da çıxıb.

Sov.İKP-nin XIX Qurultayında Malenkov məruzəsində Fadeyevi tənqid edir. Bundan sonra Bağırov da çıxışında Fadeyev haqqında tənqidi fikirlər söyləyir. Ertəsi gün səhər toplantısında çıxış edən Fadeyev Malenkov yoldaşın haqlı tənqidini qəbul edir, Bağırovun iradlarını isə düz saymır. Amma elə həmin gün axşam iclasında Fadeyev arayış üçün söz alıb səhərki çıxışı üçün Bağırovdan üzr istəyir. Bu iki iclasın arasında nə baş verdiyini və kimin kimə necə təsir etdiyini təsəvvür etmək çətin deyil.

Söhbətlərini dinləməyə müyəssər olduğum çağdaşları Bağırovun uzun zaman Heydər Hüseynova çox xoş münasibət bəslədiyini təsdiq edirlər. Ənvər Məmmədxanlı danışırdı ki, Bağırovun iş otağında yazıçılardan hansısa yeni əsərini oxuyarkən (belə vaxtlar da varmış) Mir Cəfərin yanında Heydər otururdu və bəzi çətin sözləri ona tərcümə edərdi. Çox gənc yaşında Heydər Hüseynov Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdi.

Tarixçi Nəsiman Yaqublu Heydər Hüseynova həsr olunmuş yazısında qeyd edir ki, 1947-ci il fevralın 5-də «Ədəbiyyat qəzeti»ndə Rəsul Rzanın Heydər Hüseynovun deputatlığa namizəd verilməsiylə əlaqədar «Böyük alim, gözəl insan» adlı məqaləsi çıxmışdır. N.Yaqublunun yazdığına görə, məqalədə gurultulu, pafoslu cümlələr yoxdur. Şair öz dostu haqqında ən adi sözlərlə danışır, onu tək görkəmli filosof kimi deyil, həm də ədəbiyyatın dərin bilicisi kimi səciyyələndirir.

Atamın arxivində onun Heydər Hüseynova yazdığı məktubun surəti qalır.

«Heydər, salam! Mən Moskvanın yaxınlığındakı Staro Ruza Yazıçılar evində işləməyə gəlmişəm. Özümlə Nizaminin «Xosrov və Şirin»ini gətirmişəm ki, arxayın vaxtlarda, telefon, iclas olmayan bir zamanda yavaş-yavaş tərcümə edim, getsin. Mayakovskini də tərcümə edirəm. Sənin lüğətini gətirmişəm. Baxdım, sən yadıma düşdün, oturub bu kağızı yazdım. Bu tərcümələr, Heydər, məni lap təngə gətirib. Özümün beş-altı tərcüməm ("şeirim" olmalıdır – A.) var, yazmaq üçün ölürəm, ancaq bu zalım oğlu Nizamidə insaf yoxdur ki, yazıb yaza bildikcə. A kişi, 14 min misra da poema olar? Cəfər Xəndan Cəfər Xəndanlığı ilə bu uzunda yazmır… Nə isə, şərəfli işdir. Ancaq, təəssüf ki, gec başlamışıq. Belə bir poemanı bir ilə, on aya yox, beş ilə səliqə ilə, təmkinlə tərcümə etmək lazımdır. Lüğətin mənə çox kömək edir, çox sağ ol. Ancaq bəzi sözləri tapmayanda cinlənirəm. Hələlik bu qədər. Sağ ol! R.Rza. 20 fevral 40».

Bu məktub ona görə maraqlıdır ki, əvvəla, şairlə alimin yaxın dostluq əlaqələrini göstərir. Heydər Hüseynov atama bağışladığı kitablarında nədənsə ona Rəsul dadaş deyə müraciət edir. Məktubun başqa bir önəmi ondadır ki, Rəsul Rza taleyinin ağır bir dövründə yazılıb. Latın əlifbasından kirilə keçmək məsələsiylə bağlı günahlandırılan Rəsul Rza (bu barədə başqa yazılarımda geniş məlumat var) Yazıçılar İttifaqının sədri vəzifəsindən çıxarılır, Bağırovun qəzəbinə keçir, adı qara siyahılara düşür, amma məktubdan göründüyü kimi, bədbinliyə qapılmır, nikbinliyini və yumor hissini itirmir. Ümumiyyətlə, ömrünün çətin məqamlarında, o cümlədən on il zəhmətini çəkdiyi ilk Azərbaycan ensiklopediyasının rəhbərliyindən uzaqlaşdırılanda, yaxud «Rənglər» silsiləsinə qarşı cahil hücumlar səngiməyəndə, atam nicatı yaradıcılıqda, yeni əsərlər yazmaqda ya tərcümə etməkdə tapırdı.

1950-ci il iyulun 14-də Bakıda fəallar yığıncağında Bağırov Heydər Hüseynovu kəskin tənqid edərək deyirdi ki, müəllif öz kitabında Azərbaycan

mütəfəkkirlərinin mürtəce, idealist fikirlərini gətirərkən onları marksist-leninçi mövqeyindən tənqid etmir, onların fikirlərinə şərik çıxır və bu fikirləri təbliğ edir.

Bağırov məruzəsində deyir ki, Bakıxanov şübhəsiz böyük tarixçi olmaqla yanaşı, həm də idealist idi, ömrünün sonuna qədər mömin müsəlman olaraq qalmışdı. Hüseynov isə, Bağırova görə, onu materialist sayır. Hüseynovun tərifədiyi Mirzə Kazım bəy qatı monarxist idi. Amma Heydər Hüseynovun əsas günahını Bağırov Şeyx Şamilə müsbət münasibətində görür.

Qeyd etmək lazımdır ki, ona qədər sovet tarixçilərinin əsərlərində Şeyx Şamilin rolu mənfi səciyyələndirilmirdi. Tam tərsinə. Yadımdadır, orta məktəbdə bizim tarix dərsliyimizdə Şeyx Şamilin şəkli verilirdi və onun haqqında qəhrəman kimi bəhs olunurdu. Sovet yazıçısı Petr Pavlenko Şamil haqqında roman yazmışdı. Mehdi Hüseynin «Şeyx Şamil» adlı pyesi var. Yeri gəlmişkən, bu pyes haqqında da M.C.Bağırovu qocaman yazıçı M.S.Ordubadi xəbərdar etmişdi. Bağırovun yanında növbəti yazıçılar toplantısında Ordubadi rəhbərə müraciətlə: – Mir Cəfər, bizim səhnəmizdə rusun başını kəsmək olar? – deyə sual vermişdi. – Necə? – Bağırov özündən çıxanda izah olunmuşdu ki, söhbət Mehdi Hüseynin pyesindən gedir. Pyes dərhal qadağan olunur. Bəlkə elə Şamil haqqında mənfi fikrin ilk qığılcımı Bağırovun beynində bu vaxt alışır.

Şeyx Şamilə müsbət münasibətinə görə Heydər Hüseynovun üstünə alov püskürəndə, Şamili türk casusu çıxaranda Bağırov bir neçə məqsəd güdürdü. 20 il ərzində çar ordusuyla vuruşan dağlı qəhrəmanı «ifşa edəndə» Stalinə qulluq göstərirdi. Axı Stalin artıq böyük rus şovinizminin carçısına çevrilmişdi. Digər tərəfdən, Bağırov Rusiyanın, sonra da SSRİ-nin əzəli düşməni Türkiyəyə mənfi münasibətini bir daha nümayiş etdirirdi. Və nəhayət, üçüncü məqsəd onun itaətkarlığını qəbul etməyən Fadeyevi yerində oturtmaq idi. Məsələ ondaydı ki, bu hadisələrdən qabaq Heydər Hüseynov kitabını Fadeyevə göndərmişdi, o da kitabı çox bəyənmiş və Mükafat Komitəsinin sədri kimi əsərin Stalin mükafatına təqdim edilməsinin təşəbbüskarı olmuşdu. Bu da Bağırovu cin atına mindirmişdi. Onun razılığı, icazəsi, hətta xəbəri olmadan kimin nə həddi vardı ki, Azərbaycan müəllifini Stalin mükafatına təqdim etsin. Hələ üstəlik, bu mükafatı alsın da. Mərəkə bundan sonra başlandı. Sovet tarixində ilk dəfə olaraq Stalinin özünün imzaladığı qərar qüvvədən düşdü, yeni qərara əsasən, mükafat geri alındı. Amma iş bununla da bitmədi. Bağırov dağıstanlılara etiraf edirmiş ki, mənim Şamillə işim yoxdur, mənim işim Heydər Hüseynovladır. Heydərin özünə isə deyibmiş ki, səni milçək kimi əzəcəm, heç tozun da qalmayacaq. Bir yandan da Heydər Hüseynovu rəqibləri kimi görən, yerlərini itirmələrindən qorxan partiya məmurları məsələni bir az da şişirdirdilər. İş ondaydı ki, kinli və qisasçı M.C.Bağırovun özü də Moskvaya, Fadeyevə arxalana biləcək Heydər Hüseynovu onun, Mir Cəfərin yerinə göz dikmiş adam saya bilərdi. Bir sözlə, akademik İ.Kraçkovskinin də yüksək qiymətləndirdiyi Heydər Hüseynovun – parlaq gələcəyi ola biləcək gənc alimin – taleyi birdəfəlik qırılır. Heydər Hüseynov nəinki Akademiyadakı vəzifəsindən, hətta Akademiyanın həqiqi üzvlüyündən də çıxarılır, partiya sıralarından xaric edilir. Bağırova yazdığı məktublara – «səhvlərinin» etirafı, tövbə, üzrxahlıq və xahiş məktublarına da məhəl qoyan olmur. Üstəlik, Heydər Hüseynovun kitabına müsbət rəylər vermiş Məmməd Arif, Mirzə İbrahimov, akademik Makovelski, Mehdi Hüseyn də kəskin tənqidlərə məruz qalırlar.

Məmməd Arifi isə Bağırov həmin elə o fəallar yığıncağının kürsüsündən Türkiyə casusu adlandırıb.

Araz danışırdı ki, o günlər Arif əminin pal-paltarını bir çemodana yığıb həbsini gözləyirmişlər. Mənzillərində də axtarış ehtimalı olduğuna görə türkologiyaya aid olan bütün kitabları, o cümlədən rus şərqşünasları Bartoldun, Qordlevskinin və başqalarının kitablarını yandırıblar. Axı bu kitabları görsəydilər, Məmməd Arifin, yoldaş Bağırovun dediyi kimi, türk casusu olmasına şübhə qalmazdı. Heydər Hüseynov son günlərinə qədər Məmməd Arifə telefon edir, dostunun səsini eşidib həbs olunmadığını bilərək dəstəyi asırmış. Axı telefonlar dinlənilirmiş. Təqiblər alimin ailəsindən də yan keçməyib. Aspirant tələbələrini də elmdən uzaqlaşdırıblar, həvəslə yaratdığı Fəlsəfə institutunu bağlayıblar, Universitetdə Tarix fakültəsinin fəlsəfə bölməsini qapayıblar. Absurd teatrı deyilmi?

Heydər Hüseynovun qızı mərhum Sara xanım yazırdı ki, 4 iyulda Filarmoniyada Heydər Hüseynovun «bolşevik edamı» baş verəndən sonra, onun həbsi və güllələnməsi qaçılmaz idi. Amma Heydər Hüseynov cəlladlarını qabaqladı, avqustun 15-də canına qəsd edərək ailəsini totalitar rejimin sürgün düşərgələrindən qurtardı.

Məhkum filosofun kitabına müsbət rəy vermiş müəlliflər öz günahlarını boyunlarına alıb tövbə etdilər.

Özü də Stalin QULAQ-ının buzlu cəhənnəmindən keçmiş qocaman alim Cəfər Rəmzi Yüzbaşov vətənə dönəndən sonra Rəsul Rzaya bir neçə məktub göndərmişdi. (Bir məktubu da mənə ünvanlamışdı. Televiziyada doğma dilimizi müdafiə etdiyim çıxışıma görə mənə xoş sözlər yazmışdı). Cəfər Rəmzinin Rəsul Rzaya göndərdiyi və atamın arxivində saxlanan məktublarından biri bütünlüklə Heydər Hüseynovun son günlərinə həsr olunub. Məktubda deyilir ki, 1950-ci ilin isti yay günlərinin birində şəhərə səs yayıldı ki, məşhur alim iş otağında damarlarını kəsib, amma sağ qalıb. Poluxin küçəsi, 4 nömrəli ev ünvanını bilib üçüncü mərtəbəyə qalxdım, qapının zəngini basdım. Qapı açıldı. Qapıda orta boylu, gözləri qızarmış və çox həyəcanlı bir adam dayanmışdı. Evdə heç kəs yox idi. Ailəsini bağa yollamışdı.

– Mən Şamili tərifləməmişəm, – deyirdi, sanki özünə bəraət qazandırmağa çalışırdı, – sadəcə olaraq epiqrafda Kazım bəyin onun haqqında sözlərini gətirmişəm, bütün günahım bundan ibarətdir.

Otaqda küncdən-küncə aramsız var-gəl edirdi.

– Görəsən, kəndə gedib, orda dərs deməyimə izn verərlərmi? Orda inək, qoyun saxlayardım.

Biçarə filosof, gör nə barədə fikirləşirmiş. Yüzlərlə insana çörək verib, kasıb aspirantları öz hesabına saxlayıb, bütün qonorarlarını uşaq evlərinə paylayıb… İndi bilmirdi ki, ailəsini hansı vəsaitlə təmin edə bilər.

Mən köhnə dostumun bu pəjmürdə halından narazı qaldım. – Məmməd Arifin vəziyyəti daha da pisdir – dedim. – Bağırov onu türk casusu adlandırdı.

Heydər: – Haqlısan – dedi, – mən həddən artıq həyəcan keçirirəm. Səbəb odur ki, 8 ildi dincəlmirəm. Yay aylarında da şəhərdə qalır, işləyirdim. Odur ki, fiziki gücüm qalmayıb, özümü ələ ala bilmirəm. Arifə gəlincə, onun Zümrüdü var. ( Zümrüd xanım; M.Arifin həyat yoldaşı – A).

Heydər haqlı idi. Zümrüd xanımı xatırlaması da təsadüfi deyildi. Məmməd Arifin həyat yoldaşı o vaxt çox müdrik hərəkət etdi, ərini Kislovodska getməyə razı saldı. Beləliklə, onu Bakının zəhərli mühitindən uzaqlaşdırdı. Şəhərdə qalan Heydərə hər gün radio və qəzetlərdən təhqir selləri axıdılırdı. O günlərdə məşhur şair Süleyman Rüstəm də Ali Sovetdə onun ünvanına bir-iki kəlmə tutuzdurmuşdu.

İki gün sonra yenə filosofu ziyarət etdim. Qapını uzun zaman açmadılar, bunun səbəbini soruşanda Heydər dedi: – İstiqrazları yoxlayırdım, bəlkə uduş

var. – Sonra əlavə etdi: – Mən fanatik idim. İnanırdım ki çətin günlərim olmayacaq, həmişə hər şey yaxşı olacaq. Heç vaxt evə çoxlu pul gətirmirdim ki, çox pul adamların əxlaqını pozur. Mənə qarşı bu kampaniya başlananda Azərnəşr tələb göndərdi ki, nəşriyyata pul ödəyim. Niyə? Mən partiya məktəbi üçün qonorarsız, havayı 20 çap vərəqində kitab yazmışam. Mətbəədə mətnin yarısını yığmışdılar ki, başıma bu hadisə gəldi. Azərnəşr tələb edirdi ki, mətbəədə görülən işlərin xərcini ödəyim. Arvadımın üzüyünü satmalı oldum ki, Azərnəşrin pulunu qaytarım...

Mən dedim: – Hansı əsasla məhkəmə nəşriyyatın xeyrinə qərar çıxara bilərdi. Sən ki heç kitabın qonorarını da almamısan.

– Hansı məhkəmədən danışırsan? – dedi. – Onlarçün qanun raykomdan bir zəngdir.

Telefonun zəngi çalındı. Raykomun katibi idi, onu iclasa çağırırdı.

Heydər: – Mən xəstəyəm, – dedi, – bu halda iclasa gələ bilmərəm.

Elə bu vaxt Heydər əlində telefonun dəstəyi yerə yıxıldı. Özündən getmişdi. Mən ikinci poliklinikaya zəng etdim, həkim çağırdım.

Səhərisi gün yenə gəldim. Arvadı bağdan qayıtmışdı. Heydər otaqda əsəbi gezişirdi. Sonra qarşımda dayandı, dedi: – Rəmzi, deyərsən ki, Heydər 42 il yaşadı.

Mən ona təsəlli verməyə çalışırdım.

İki gündən sonra eşitdim ki, Heydər bağda özünü asıb».

Nəsiman Yaqublu Heydər Hüseynov haqqında yazı üzərində işləyərkən, alimin həyat yoldaşı Tale xanımla görüşüb və ərinin son günləri haqqında onun söhbətini qələmə alıb.

«Düz bir ay ölümlə mübarizə apardı. Çarpayıda səssiz uzanıb, tavana baxırdı. Son günlərini xüsusən ağır yaşadı, deyirdi ki, mən olmasam, sizi daha incitməzlər. Onda mən bu sözlərin mənasını dərk etməmişdim. Onların mənasını yalnız o müdhiş hadisədən sonra başa düşdüm. Öz xoşuyla dünyadan getdi ki, ailəsini, uşaqlarını xilas etsin. Axı otuzuncu illərdə repressiya olunanların ailələri barədə məlumatı vardı».

Ali məktəbə qəbul imtahanlarını əla verməsinə baxmayaraq, Saranı instituta qəbul etmirlər. Həyasızcasına ona: – Sənə, xalq düşməninin, burjua aliminin qızına sovet ali məktəbində yer yoxdur, – deyirlər.

Çox sonralar ali filoloji təhsil alan Sara atasının elmi irsiylə məşğul olurdu. Bu son dərəcə ziyalı, savadlı qızla bir il müddətində Nizami muzeyində bərabər çalışmışıq (1961-ci ildə).

Yazıçılar təşkilatının rəhbəri seçiləndən sonra mən Sara Hüseynovanı İttifaqa üzv qəbul etdim. O vaxt üzvü olduğu İttifaqdan çıxarılan Heydər Hüseynovun da Yazıçılar İttifaqına üzvlüyünü bərpa etdik.

Heydər Hüseynov haqqında dəyərli kitab yazmış Fəridə Səfiyeva Sarayla da, alimin o biri qızlarıyla da görüşmüş, onların xatirələrini, söhbətlərini qələmə almışdır. Mən bilmirdim ki, alimin qızı Leyla atasının faciəsində Bağırovdan çox, Moskvanı günahlandırır. Təxmin olunur ki, Heydər Hüseynovun kitabı tək Bağırovu yox, Mərkəzi Komitənin ideoloji işlər üzrə katibi Mixail Suslovu da qəzəbləndirib. Əlbəttə, ruslara qarşı vuruşan Şeyx Şamilin türk casusu kimi «ifşa» olunması Suslovun da, Beriyanın da, Stalinin özünün də ürəyindən idi. Amma kütləvi repressiyalar dövrü keçəndən sonra bir Azərbaycan alimini intihar həddinə çatdırmağa onların ehtiyacı yox idi. Şübhəsiz, burda həlledici amil Mir Cəfər Bağırovun hikkəsi, qəddarlığı və amansızlığı idi.

Ümumiyyətlə, bu məsələ insanı başqa, daha universal münasibətlər haqqında düşünməyə vadar edir. Məlumdur ki, bir çox Azərbaycan

ziyalılarından Moskvaya danoslar elə respublikanın özündən, çox vaxt onların öz paxıl həmkarlarından gedirdi və cavab olaraq respublika rəhbərlərinə verilən tapşırıqları yerli məmurlar Moskvanın yox, guya ki, öz adlarından yerinə yetirməli olurdular. Bu praktika, yəni Moskvanın bu sayaq göstərişlərinə əməl etmək məcburiyyəti Nərimanovdan Bağırova qədər bütün Azərbaycan rəhbərlərinin qarşısına çıxırdı və onlar imkanları daxilində bunları həll etməyə çalışırdılar. Az-çox insaflı və öz ziyalılarının qədrini bilən rəhbərlər bu göstərişlərdən çıxan nəticələri mümkün qədər yumşaltmağa çalışırdılar. Bağırov kimi əzazil rəhbər isə şəxsi hisslərini çilovlamayaraq qərar verirdi. «Müqəssir» saydığı insanın nəinki özünü, ailəsini cəzalandırır, ölüsündən belə hayıf çıxırdı.

Buna görə də Heydər Hüseynovun çekist nəzarəti altında olan dəfnində yalnız mərhumun ailə üzvləri iştirak edib. Heç molla da gəlməyib. Mollalar da o vaxt Allahdan çox, Bağırovdan qorxurmuşlar.

Mənim də tanıdığım bir nəfər çox illər sonra, sular durulanda qürrələnirdi ki, dəfndə iştirak edib. Təhlükəsizlik təşkilatıyla bağlılığı hamıya bəlli olan bu adam dəfndə də tapşırıqla iştirak edirmiş ki, kimin gəlib-gəlmədiyini lazımi yerlərə çatdırsın. Sara xanım da onu tanıyır və «osvedomitel» (xəbərçi, çuğul) adlandırırdı. Köhnə dostlarından heç biri Heydər Hüseynovun dəfnində iştirak etməyib. – Nə Məmməd Arif, nə Mirzə İbrahimov, nə Səməd Vurğun, nə Mehdi Hüseyn, bunu yazmaq mənə nə qədər ağır olsa da, əfsus ki, nə də Rəsul Rza.

Heydər Hüseynovun intihar xəbərini Altıağacda eşitdik. O yay ata nənəm Məryəm xanımla və bibim Surəylə orda dincəlirdik. On iki yaşındaydım, amma çox şeyi artıq başa düşürdüm. Surə bibim bu xəbəri eşidəndə hönkürüb ağladı. Nənəm: – Adam içində ağlama, – dedi, – qardaşına xətər gələr.

Bəli, belə zamanlar vardı və bu barədə yazarkən sözlərimin neçə tərəfə yozulacağını da bilirəm. Amma yazmaya də bilmərəm. Və nənəmi qınamıram. Gözləri qarşısında neçə talelərin tələf olmasını görmüşdü və gözü qorxmuşdu. Bircə oğlu üçün qorxurdu.

Payızda dərslərimiz başlananda elə birinci dərsdəcə tarix müəllimimiz dedi ki, kitablarımızda şəkli olan Şeyx Şamil, demə, çox pis adam imiş. Müəllim məhz məndən xəbər aldı ki, bəs, Azərbaycanda bu türk casusunu kim təbliğ edirdi? Dedim ki, bilmirəm.

Müəllimin Heydər Hüseynovu nəzərdə tutduğunu bilirdim. Heydər Hüseynovu şəxsən tanıyırdım, dəfələrlə atamgildə görmüşdüm. Yadımdadır, bir dəfə müharibə vaxtı bizdə ikən gecə vaxtı təhlükə siqnalı eşidildi, dərhal o da, atam da iş yerinə getdilər. Atam kinostudiyaya, Heydər Hüseynov AZFAN-a.

Kinostudiyanın müdiri olarkən hardansa atamın ağlına düşmüşdü ki, mənə general libası tikdirsin. Bəzən bu libasda anamla gəzməyə də çıxırdıq. Bir dəfə o vaxt Krivoy adlanan küçədə Heydər Hüseynova rast gəldik, dayanıb bizimlə görüşdü və mənim general libasıma sataşdı. Ondan sonra məni görəndə zarafatla «şalvarı düşük general» deyərdi.

O dərsdə isə müəllim mənə:

– Şamilin Azərbaycanda kimin təbliğ etdiyini sən bilirsən və deyəcəksən, – dedi.

Bəlkə də ailəmizdəki ovqatı bilmək üçün bu cavabı məhz məndən almaq tapşırılmışdı ona.

– Bilmirəm və demirəm, – dedim.

– Deməsən, sənə “iki” yazacam.

– Yazın, – dedim.

Doğrudan da, o gün cavab vermədiyimə görə mənə "iki" yazdı. Bu mənim həyatda ilk vətəndaşlıq addımım və tarixdən aldığım ilk "iki" idi. Ona qədər bu dərsdən həmişə "beş" alardım.

Bakıda küçələrin adlarının dəyişdirilməsi və yeni adlar verilməsi üzrə kormissiya vardı və mən də onun üzvü idim. Təklif etdim ki, dağıstanlı inqilabçı Buynakskinin adını daşıyan küçəyə Şeyx Şamilin adı verilsin. Təklifim qəbul olundu. İndi bu küçəyə yolum düşəndə həm Qafqaz xalqlarının azadlığı uğrunda mübarizə aparan cəsur qəhrəman Şeyxi Şamili anır, həm də «Şeyx Şamil qurbanı» Heydər Hüseynovun acı taleyinə yanıb- yaxılıram.

Atam da Heydər Hüseynovu ömrü böyü ağrıyla xatırlayırdı və təəssüf edirdi ki, bir az səbr edə bilməyib, axı çox qısa müddətdən sonra hər şey kökündən dəyişdi: Stalin öldü, Bağırov həbs olundu.

Müəyyən hadisələr baş verəndə bəzən bizə elə gəlir ki, Allahın bunlardan xəbəri olmur, yoxsa belə haqsızlığa yol verməzdi. Amma müəyyən vaxt keçir və Tarix hər şeyi yerbəyer edir. Hər kəs layiq olduğunu alır. Şeyx Şamil Allaha inanırdı. Tarix Allahın səbridir. Heydər Hüseynov ateist idi. Amma səbrli Allahın iradəsi onun da təmiz adını xalqımıza qaytardı.

***Avqust 2012***

* * *

# GÜNEYDƏN GƏLƏN SƏSLƏR

İki yüz ildən artıqdır ki, Araz çayı İran tərkibindəki Cənubi Azərbaycanı bu gün müstəqil dövlət olan Şimali Azərbaycandan ayırıb. Amma şeirimizin iftixarı olan sənətkarların adlarını çəkmək yetərlidir ki, vahid ədəbiyyatımızın bölünməz olduğu bilinsin: Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nişat Şirvani, Ağa Məsih Şirvani, Nəvvab Qarabaği, Qətran Təbrizi, Qövsi Təbrizi, Saib Təbrizi, Əbdülqədir Marağayi, Arif Ərdəbili… Gəncə, Şirvan, Qarabağ – Qüzey; Təbriz, Ərdəbil, Marağa – Güney Azərbaycan…

Uzun illər boyu Güney Azərbaycanda ana dilində şeir yazmaq böyük çətinliklərlə üzləşir.

Cənubi Azərbaycanın böyük şairi, «Molla Nəsrəddin» ədəbi məktəbinin təsiriylə yetişən Mirzə Əli Möcüz Şəbüstəri (1873-1934) «Anan təlim edən dildə» adlı şeirində yazırdı:

***Dilim türki, sözüm sadə, özüm səhbaye-dildadə,***
***Mənimtək şairin əlbəttə, olar kasad bazarı.***
***Dünən şeir ilə namə apardım şahi İranə,***
***Dedi: Torki nəmidanəm, məra to beççə pəndari?***
***Özü türk oğlu türk, amma deyir türki cəhalətdir,***
***Xudaya, müzhəmil qıl taxtdan bu ali Qacarı…***

***Ümidin kəsmə Möcüz, yaz anan təlim edən dildə,***
***Gəzər bir ərmağantək dəftərin Çinü-tatarı…***

XX əsrdə Cənubi Azərbaycan xalqı üç dəfə öz azadlığı, doğma dildə yazıb-oxumaq haqqı uğrunda mübarizəyə qalxıb – keçən əsrin əvvəllərində, iyirminci və qırxıncı illərində. Hər dəfə də xalqın azad olmaq əzmi qan içində boğulub. Amma nisbətən «dinc» illərdə də milli köləliklə, doğma dilə qoyulmuş yasaqlarla barışmayanların aqibəti – edamlar, dar ağacları, sifarişli qətllər, zindanlar və sürgünlər olub. Gənc yaşlarından inqilabi hərəkata qoşulmuş, fədai dostlarıyla bir yerdə məhbəslərə atılmış şairə Mərziyə Üsküyünü (1945-1973) şah polisi 27 yaşında qətl etmişdir.

***Gecələrim aysızdır***
***Gündüzlərim günəşsiz.***
***Ömrüm illərdən bəri***
***Bu cür sovuşur – səssiz.***
***Nifrət, soyuq aldanış***
***Yurdumuzu qaplamış.***
***Kökü dildən quruyub***
***səadətin, şadlığın.***
***Qaranlıq yığın-yığın,***
***nə sonu var, nə dibi.***
***Ah bu zülmət, kor zülmət***
***gəmirməkdə qəlbimi.***

Bu həzin şeirin müəllifi Mərziyə Üsküyü (Dalğa) haqqında Şimali Azərbaycan oxucularına məlumatı ilk dəfə yazıçı-alim Əzizə xanım Cəfərzadə vermişdir. Bəxtiyar Vahabzadə Mərziyəyə poema həsr etmişdir.

İstedadlı gənc nasir, hekayələri İranda və İrandan uzaqlarda da geniş şöhrət qazanmış Səməd Bəhrəngini Araz çayında boğdurmuşlar.

Güney Azərbaycanın qocaman şairi Həbib Sahir Səməd Behrənginin ölümünə şeir həsr edib:

***Yayın isti bir günündə***
***Dağdan qəmgin günəş doğdu.***
***Hələ o gün gün batmadan***
***Bəhrəngini Araz boğdu.***